BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2010*

# AZƏRBAYCANIN «SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ» PROQRAMINDA İŞTİRAKI

**Z.M.HƏSƏNALIYEV**
***Bakı Dövlət Universiteti***
***e.memmedof@mail.ru***

*Məqalədə Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramında iştirakının tarixi və siyasi aspektləri təhlil edilmişdir. Qeyd edilmişdir ki, Azərbaycan artıq Avroatlantik Əməkdaşlıq Şurasının iclaslarında mövqeyi qəbul edilən tərəfdaşa çevrilmişdir.*

*Müəllif belə bir qənaətə gəlir ki, Azərbaycan diplomatiyası bu situasiyadan hərbi-siyasi təhlükəsizliyinin təmini üçün maksimum dərəcədə istifadə etməlidir. Belə ki, Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təminində NATO ilə əməkdaşlıq böyük imkanlar formalaşdırır və bu müsbət hal kimi qəbul edilməlidir.*

Keçmiş Sovet respublikalarından biri kimi Azərbaycan Respublikası da «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaq üçün dəvət edilmişdir. Lakin Azərbaycanın bu proqrama qoşulması məsələsinə toxunmazdan əvvəl, həmin ərəfədə respublikanın üzləşdiyi hərbi-siyasi vəziyyəti təhlil etmək zəruridir.

1993-cü ilin dekabrında ordu quruculuğunda müsbət tədbirlər nəticəsində döyüş qabiliyyətini xeyli artırmış Azərbaycan ordusu bütün cəbhə boyu, xüsusən Füzuli-Beyləqan istiqamətində əks hücuma keçərək işğal edilmiş ərazilərin müəyyən qismini geri qaytardı. Hərbi əməliyyatların gedişində təşəbbüs yenidən Azərbaycanın əlinə keçdi. Ermənistan 1993-cü ilin noyabrı üçün artıq qarşısına qoyduğu hədəflərə nail olmuşdu. Dağlıq Qarabağla Laçın və Kəlbəcər rayonları vasitəsilə etibarlı əlaqə yaradılmış, Azərbaycanla siyasi danışıqlarda mübadilə vasitəsi kimi istifadə etmək üçün bir neçə rayon işğal edilmiş, bu rayonlarda bufer rolunu oynayacaq Rusiya ayırıcı qüvvələrinin yerləşdirilməsi üçün zəmin hazırlanmış və ən əsası Ermənistan gələcək danışıqlarda özü üçün diqtə edən tərəf rolunu təmin etmişdi. Başqa sözlə desək, Ermənistan artıq sülh danışıqlarına hazır idi… Hərbi cəhətdən isə Ermənistan heç də əlverişli mövqedə deyildi. Cəbhə xəttinin bir neçə dəfə böyüməsi erməni ordusunun hərbi imkanlarına mənfi təsir göstərirdi. Ordunun hərbi təminatı və psixoloji vəziyyəti getdikcə pisləşirdi. Azərbaycan tərəfinin uğurlu əks hücumu Ermənistanı zəbt etdiyi əlverişli hərbi-siyasi mövqelərdən məhrum edə bilərdi. Buna görə də Ermənistan və Rusiya sülh haqqında danışıqları canlandırmaq məcburiyyəti qarşısında idi. Rusiyanın mövqelərinə gəldikdə, 1994-cü ilin yaz ayları üçün hərbi əməliyyatların miqyasının genişlənməsi onun maraqlarına uyğun deyildi. Münaqişənin intensivləşməsi ATƏM və BMT-nin münaqişənin həllində iştirakını daha da fəallaşdıra bilərdi. Bu isə MDB məkanını öz «votçinası» hesab edən Rusiya üçün arzuedilməz idi. Buna görə də RF-nin hərbi-siyasi rəhbərliyi aşağıdakı hədəflərə nail olmağa çalışırdı: gələcəkdə tərəflərə siyasi təsir etmək imkanına malik olmaq üçün

münaqişənin konservasiyası; münaqişədə Ermənistan üçün əlverişli mövqelərə nail olmaq; siyasi nizamlama prosesinin inhisara alınması; bu prosesə digər dövlət və təşkilatların təsir etmək imkanlarının qarşısını almaq [1, 26].

Yuxarıda göstərilən məqamlar regionda artıq müttəfiq olan Ermənistan və Rusiyanın mövqelərini daha da yaxınlaşdıraraq, onları münaqişənin MDB çərçivəsində nizamlanmasının yollarını axtarmağa sövq edirdi. Ermənistan münaqişənin MDB çərçivəsində həll edilməsində ona görə maraqlı idi ki, istənilən beynəlxalq təşkilat dövlətlərin ərazilərinin dəyişilməzliyi və sərhədlərin toxunulmazlığı prinsipindən çıxış edirdi. 1994-cü il 15 apreldə Moskvada qəbul edilmiş MDB iştirakçı dövlətlərinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin edilməsi haqqında Bəyannaməni imzalayan Ermənistan MDB çərçivəsində münaqişənin həlli zamanı beynəlxalq hüququn bu əsas prinsiplərindən yan keçə biləcəyini zənn edirirdi, çünki bu qurum daxilində Ermənistan həmin prinsiplərə riayət edəcəyi barədə heç bir öhdəlik götürməmişdi. Ümumiyyətlə, Ermənistan parlamenti 1992-ci il aprel qərarı ilə hökumətə Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən hər hansı bir sənədin imzalanmasını qadağan edirdi [1, 29].

Qeyd etdiyimiz dövrdə, hərbi təşəbbüsü əlinə almasına baxmayaraq, sülh danışıqları Azərbaycan üçün də zəruri idi. Əvvəla, hakimiyyətdə olmuş əvvəlki hökumətlərin səriştəsiz idarəçiliyi sayəsində ölkənin iqtisadi resursları xeyli tükənmiş, yeni idarəçilik strukturları yaradılmamışdı ki, bu da uzun müddətli hərbi əməliyyat aparmaq üçün əsas şərt idi. İkinci, yenə də həmin səriştəsiz hökumətlərin xarici siyasəti nəticəsində Azərbaycan faktiki təcrid edilmiş vəziyyətə düşmüş, ABŞ Konqresi Azərbaycana qarşı 907-ci düzəlişi qəbul etmişdi. Bu düzəlişin qəbul etdirilməsində erməni lobbisi ordumuzun 1992-ci ilin yay-payız hücum əməliyyatlarından məharətlə Azərbaycanın əleyhinə istifadə etmişdi. Azərbaycan reallıqlarını beynəlxalq aləmə çatdırmaq imkanlarının məhdud olduğu bir vaxtda və Ermənistanın sülh danışıqlarına başlamaq haqqında çağırışları fonunda növbəti dəfə hücum əməliyyatı keçirmək siyasi-diplomatik mülahizələr baxımından məqsədəuyğun deyildi. Lakin münaqişənin MDB çərçivəsində həll edilməsi Azərbaycanın Ermənistan-Rusiya tandemi tərəfindən təklənməsi, Azərbaycanın suverenliyinin məhdudlaşdırılması demək idi. Belə bir şəraitdə Azərbaycan xarici siyasətinin qarşısında münaqişənin həllində ATƏM Minsk Qrupunun fəallaşmasına nail olmaq və Rusiya-Ermənistan tandeminə qarşı beynəlxalq təşkilatlarla münasibətləri daha da inkişaf etdirmək dururdu [1, 46-47].

«Sülh naminə tərəfdaşlıq» proqramının elan edilməsi məhz bu baxımdan böyük marağa səbəb oldu. Yəni NATO ilə əməkdaşlıq Azərbaycana gələcəkdə təhlükə törədə biləcək qüvvələrin qarşısının alınmasında, bitərəfləşdirilməsində və iqtisadi tərəfdaşa çevrilməsində mühüm rol oynaya bilər, ölkəmizi təzyiqlərdən xilas edə bilərdi. Əlbəttə, bunun üçün əvvəlcə NATO-nun Azərbaycana münasibətində dəyişikliklərə nail olmaq lazım idi. Başqa sözlə, NATO Azərbaycana keçmiş Sovet respublikalarından biri kimi deyil, əlverişli geosiyasi mövqeyi olan əhəmiyyətli tərəfdaş və Qərbin iqtisadi partnyoru kimi baxmalı idi. «Sülh naminə tərəfdaşlıq» Proqramı bunun üçün gözəl vasitə idi. Bu Proqram sayəsində Azərbaycan öz praktik fəaliyyəti, proqramın tədbir və təlimlərində yüksək səviyyəli iştirakı ilə alyans üzvlərinin diqqətini cəlb etmək imkanını qazanırdı.

1994-cü ilin 8-11 fevralında İstambul şəhərində Şimali Atlantik Əməkdaşlıq Şurasının (ŞAƏŞ) xarici işlər nazirləri səviyyəsində sessiyası keçirildi. Sessiya-

nın işində iştirak edən Xarici işlər naziri H.Həsənova almaniyalı tərəfdaşı K.Kinkel tərəfindən «Sülh naminə tərəfdaşlıq» Proqramı haqqında sənədlər paketi təqdim edildi [2, 14].

«Sülh naminə tərəfdaşlıq» Proqramının Azərbaycan Respublikası üçün hansı imkanlar açdığını aydınlaşdırmaq üçün hökumətimiz rəsmi olaraq NATO-ya müraciət etdi. Bu müraciətə cavab olaraq 1994-cü il martın 21-də NATO-nun Türkiyə qərargahında fövqəladə və səlahiyyətli nümayəndəsi Tuqay Özşarinin başçılıq etdiyi alyansın yüksək rütbəli hərbi və siyasi nümayəndələrindən ibarət heyət respublikamıza səfər etdi. Nümayəndə heyətini qəbul edən prezident H.Əliyev Azərbaycanın mövqeyinə aşağıdakı kimi aydınlıq gətirdi: «Azərbaycan Respublikası NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramını yararlı əməkdaşlıq proqramı kimi qəbul edir, ona imza atmaq və bu Proqrama qoşulmaq niyyətindədir. Bununla belə indiki şəraitdə respublikamızın vəziyyətini nəzərə alaraq Azərbaycan üçün bir sıra məsələləri aydınlaşdırmaq lazımdır» [1, 14].

T.Özşarinin «Sülh naminə tərəfdaşlıq» Proqramı haqqında dediklərindən Azərbaycan üçün daha əhəmiyyətli olanlar, fikrimizcə, aşağıdakılar idi. Bu Proqram NATO-nun genişləndirilməsi, onun üzvlərinin sayının artırılması barədə təklif və istəklərdən doğmuşdur. Proqram hüquqi əhəmiyyətindən əlavə, siyasi məna kəsb edir və hər bir dövlətin müstəqil və sərbəst şəkildə NATO ilə əməkdaşlıq etməsini nəzərdə tutur. Proqrama daxil olmaq və onun üzvlüyündən çıxmaq hər bir dövlətin müstəqil iradəsidir. Proqram onu imzalayan dövlətlərin NATO-ya daxil olması yolunda ilk addımdır. Proqramın iştirakçısı olan dövlətlərdən hər hansı birinin ərazi bütövlüyü və müstəqilliyi təhlükə altına alınarsa, NATO ölkələri bu barədə məsləhətləşmələr aparacaq və qarşıya çıxan problemə öz münasibətini bildirəcək [3, 171].

Bu müddəa məlum səbəblərə görə Azərbaycan üçün olduqca əhəmiyyətli idi. Bütün bunlardan əlavə, Azərbaycan silahlı qüvvələrin quruculuğunda NATO təcrübəsindən də faydalana bilərdi. Bu sahədə NATO ilə birgə hərbi təlimlərin keçirilmə imkanı müsbət qiymətləndirildi. Respublikanın bu Proqrama qoşulmasının tezləşdirilməsi qərara alındı.

1994-cü il may ayının 4-də Belçikada səfərdə olan Azərbaycan Respublikasının prezidenti NATO-nun Brüsseldəki mənzil-qərargahında alyansın Baş Katibinin birinci müavini Sercio Balansino və digər rəhbərləri tərəfindən qarşılandı. NATO-nun iclasında çıxış edən H.Əliyev Azərbaycanın müasir durumu, onu narahat edən problemlər, xüsusən də Qarabağ müharibəsi və onun nəticələri haqqında ətraflı məlumat verərək, NATO ilə əməkdaşlıqda respublikanın maraqlı olduğunu və «Sülh naminə tərəfdaşlıq» Proqramını alqışladığını bildirdi. Bundan sonra «Sülh naminə tərəfdaşlıq» Proqramının çərçivə sənədini imzalayaraq bəyanat verdi. Qeyd edək ki, bu sənədin imzalanması MDB Parlamentlərarası Assambleyası çərçivəsində Qarabağ münaqişəsinin həll edilməsini nəzərdə tutan Bişkek Protokolunun imzalanmasından Azərbaycan nümayəndə heyətinin imtina etməsi ilə eyni vaxta düşürdü. Bununla Azərbaycan hər vasitə ilə öz mövqelərinin üzərində möhkəm duracağını və müstəqilliyinin məhdudlaşdırılmasına imkan verməyəcəyini əməli surətdə sübut etdi. Məhz bir-birilə bağlı olan bu addımlardan sonra Bişkek Protokoluna Azərbaycanın mövqeyinə uyğun əlavələr edildi. Bu dəyişikliklər edilməsə belə, Heydər Əliyevin bəyanatı münaqişənin ATƏM çərçivəsində həll olunması sahəsində əhəmiyyətli stimula çevrildi. Sonrakı dövrdə müşahidə edəcəyimiz ATƏT-in fəallaşması və münaqişənin həllində

təşəbbüsü ələ almasında, şübhəsiz ki, NATO qərargahında edilmiş bəyanatın rolu da olmuşdur.

Beləliklə, Azərbaycan NATO ilə bir sıra sahələrdə faydalı əməkdaşlığı genişləndirmək imkanı əldə etdi. Azərbaycan Qərblə olan qeyri-müəyyən qarşılıqlı münasibətlərini daha konkret tərəfdaşlıqla əvəz etmiş oldu. Azərbaycan rəhbərliyinin Qərblə Rusiya arasında artıq bir neçə ay davam edən manevrləri, nəhayət, aydınlaşır və hüquqi cəhətdən təsbit olunurdu.

1994-cü il iyun ayının 10-da İstanbul şəhərində ŞAƏŞ-in xarici işlər nazirləri səviyyəsində növbəti sessiyası keçirildi. Sessiyada əsasən iki məsələ -«Sülh naminə tərəfdaşlıq» Proqramının reallaşdırılma səviyyəsinin təhlili və «Sülhyaratma zamanı Əməkdaşlıq üzrə Xüsusi Qrupun hazırladığı yekun məruzə» gündəlikdə dururdu [2, 21]. Görüşdə Azərbaycan nümayəndə heyəti də iştirak edirdi. Ermənistan və Azərbaycan arasında mayın 8-i əldə olunmuş atəşkəsdən sonra, hər iki tərəf münaqişənin həllində özü üçün əlverişli olan prinsiplərin qəbul edilməsinə nail olmağa çalışırdı. Məhz bu məsələ həmin dövr üçün diplomatiyamızın qarşısında duran ən vacib hədəf idi. Buna görə də Azərbaycanın Xarici işlər naziri öz çıxışında aşağıdakı konkret tələbləri irəli sürürdü: münaqişə bölgəsində müşahidəçilərin yerləşdirilməsini; işğal edilən ərazilərdən qoşunların dərhal, qeyd-şərtsiz çıxarılmasını; qeyri-nizami silahlı birləşmələrin tərk silah edilməsi; silah göndərilməsinin qarşısının alınmasını; məcburi köçkünlərin öz yerlərinə qayıtması və bundan sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlara başlanılmasını [2]. Bu sessiyada Qarabağ münaqişəsi öz əksini iki sənəddə – NATO Nazirlər Şurasının 9 iyunda qəbul edilmiş rəsmi sənədində və ŞAƏŞ xarici işlər nazirlərinin bəyanatında tapdı. Qarabağ münaqişəsi barədə NATO-nun və ŞAƏŞ-in sonrakı dövrlər üçün mövqeyi məhz İstanbul görüşündə qəbul edilmiş sənədlər əsasında formalaşdığı üçün bu məqamın üzərində bir qədər ətraflı dayanmaq lazımdır. NATO Nazirlər Şurasının sənədinin Cənubi Qafqaza aid olan 14-cü maddəsi, alyansın 1994-cü il Brüssel Sammiti bəyanatının 21-ci maddəsini, demək olar ki, təkrar edirdi. Bu maddələrdə deyilirdi: «Cənubi Qafqaz regionunda vəziyyət xüsusi narahatçılıq doğurur. Biz ərazi əldə edilməsi üçün qüvvə tətbiqini pisləyirik. Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsi regionda sülh, sabitlik və əməkdaşlığın bərpa edilməsi üçün əsas olmalıdır. Regionda davam edən konfliktlərin ədalətli və sülh yolu ilə həlli yalnız ATƏM və BMT-nin himayəsi altında mümkündür» [5, 3].

Göründüyü kimi, sərhədlərin qüvvə tətbiqi ilə dəyişdirilməsinin məqbul olmaması, ərazi bütövlüyünə hörmət, münaqişələrin ATƏM və BMT himayəsi altında həll edilməsinin xüsusilə vurğulanması müsbət hal kimi qəbul edilməlidir. Lakin işğalçılıq fəaliyyəti ilə məşğul olan Ermənistanın digər iki dövlətlə adının bir sırada çəkilməsi yenə də sənədi konkretlikdən yayındırırdı. Bunun da aşağıdakı səbəbləri var idi: Brüsseldə Azərbaycan tərəfinin əks hücuma keçib Ermənistan ərazisinə daxil olma imkanını istisna etmirdilər. Fikrimizcə, NATO mövqeyinin daha mühüm səbəbi alyansın Qafqaz siyasətində regionallıq amilindən çıxış etməsi idi. Yəni alyansın Qafqaz siyasəti hər üç dövləti eyni dərəcədə əhatə etməyi qarşısına məqsəd qoymuşdu.

ŞAƏŞ-in qəbul etdiyi bəyanatın Qarabağ münaqişəsinə aid bölməsinə gəldikdə isə, Azərbaycanın da səs hüququna malik olduğu bu qurumun mövqeyi, NATO-dan fərqli olaraq, daha da mülayim oldu. Bu, regionda və post-sovet

məkanında mövcud olan münaqişələr haqqında qəbul edilmiş maddələrin fonunda daha aydın görünürdü. Abxaziya münaqişəsinə, Moldovadakı Dnestrətrafı münaqişəyə, Krım ətrafında Ukrayna ilə Rusiya arasındakı gərginliyə aid maddələrdə Gürcüstanın, Moldovanın, Ukraynanın ərazi bütövlüyünün toxunulmaz olduğu bildirilirdi.

Qarabağ münaqişəsinin isə Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsi göstərilmirdi. Sənəddə deyilirdi: «Biz bir daha təsdiq edirik ki, münaqişə hərbi vasitələrlə həll edilə bilməz, yalnız ATƏM və BMT Nizamnaməsinin prinsipləri əsasında danışıqlar yolu ilə həll olunmalıdır».

ATƏT və BMT Nizamnaməsinin prinsipləri kimi Ermənistan xalqların öz müqəddəratını təyin etmək hüququnu, Azərbaycan isə ərazi bütövlüyünün toxunulmazlığını qəbul edirdi. Bu isə ŞAƏŞ-in sənədinin heç də birmənalı olmayan izahına gətirib çıxarırdı. Azərbaycan nümayəndə heyətinin öz çıxışında irəli sürdüyü bəzi məsələlər – güc tətbiqi ilə tutulmuş ərazilərdən qoşunların çıxarılması, məcburi köçkünlərin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq yerlərinə qayıtması da sənəddə öz əksini tapmamışdır. Sənəddə Rusiyanın MDB çərçivəsində sülhyaratma cəhdlərinə yer ayrılmışdı: «Biz bu məqsədlərə nail olunması üçün ATƏM-lə birgə fəaliyyət göstərən digər vasitəçilik cəhdlərini də alqışlayırıq». Lakin digər vasitələrin, yəni Rusiyanın fəaliyyətinin ATƏM-lə əlaqəli olması gördüyümüz kimi xüsusilə vurğulanır.

Sessiyada nəzərdən keçirilən digər bir məsələ sülhyaratma zamanı Əməkdaşlıq üzrə Xüsusi Qrupun hazırladığı yekun məruzə idi. Məruzə hələ 1993-cü ilin iyınunda, ŞAƏŞ-in Afina görüşündə Xüsusi Qrupun birinci məruzəsi dinlənilərkən təsdiq edilmişdi. Bu sənəddə ŞAƏŞ çərçivəsində sülhyaratma əməliyyatlarına aid bir sıra nəzəri məsələlər və əməkdaşlıq prinsipləri öz əksini tapmışdı. Bundan əlavə əməkdaşlığın konkret sahələri - təcrübə mübadiləsi, birgə konsepsiya və doktrinaların hazırlanması, hərbi hazırlıq, maddi-texniki təminat və s. göstərilirdi. Xüsusi Qrupun ikinci məruzəsi ŞAƏŞ-in 1993-cü il dekabr görüşündə təsdiq edildi. Bu sənəd konkret əməliyyatların işıqlandırılmasına həsr olunmuşdu. İstanbulda qəbul edilən yekun məruzə sülhyaratmanın siyasi və konseptual məsələlərinə və sülhyaratmanın planlaşdırılması sahəsində əməkdaşlığın texniki məsələlərinə həsr olunmuşdu [2, 11].

Təsdiq edilmiş məruzə münaqişə zamanı beynəlxalq sülhyaratma təşəbbüslərinin məhdudlaşdırılması baxımından böyük əhəmiyyətə malik idi. Münaqişənin həllində NATO kimi nüfuzlu hərbi təşkilatın iştirakına nəzəri də olsa, imkanlar açılırdı. Lakin o da aydın idi ki, beynəlxalq münasibətlərin mövcud durumu bu imkanların reallaşdırılması üçün əlverişli deyildi və olduqca aktiv və uzunmüddətli diplomatiya tələb edirdi.

«Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində fəaliyyətə gəldikdə isə, qeyd etməliyik ki, 1994-95-ci illərdə bu sahədə iş əsasən Prezentasiya sənədi sahəsində aparılırdı. «Sülh naminə tərəfdaşlıq» Proqramına görə, Çərçivə sənədi imzalandıqdan sonra, NATO ilə tərəfdaşın əməkdaşlıq istiqamətlərini özündə əks etdirən Prezentasiya sənədi hazırlanmalı idi. 1995-ci il mayın 4-də NATO-nun Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Bu Komitə Avropada Adi Silahların Azaldılması (AASA) ilə bağlı Müqavilə öhdəliklərinin yerinə yetirilməsinə nəzarət edirdi. Azərbaycan bu Müqaviləyə 1992-ci ildə qoşulmuşdu [6, 23].

Azərbaycan Prezidenti ilə keçirilən görüşdə NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri, regionda silahlı qüvvələr balansı müzakirə edilmişdi. Rusiya ilə Ermənistan arasında hərbi əməkdaşlıq haqqında bağlanmış müqavilənin Azərbaycan tərəfində narahatçılıq doğurduğu bildirilmişdi. Görüşdə həmçinin ŞAƏŞ iclaslarında Azərbaycan tərəfinin qaldırdığı daha bir məsələ – Ermənistanın işğal etdiyi ərazilərdə nəzarətdən kənar qalmış hərbi qüvvələrin və silahların yerləşdirilməsi NATO nümayəndələrinin diqqətinə çatdırılmışdı. Adi Silahlı Qüvvələrin Azaldılması haqqında Müqavilənin nəzarətindən kənarda qalan, Ermənistan Respublikasına məxsus bu silahlı qüvvələr regionda gərginlik yaradan əsas amil olduğu üçün NATO-nun lazımi tədbirlər görməsi Azərbaycanın əsas tələbi kimi bir daha qoyulmuşdu.

Bilavasitə «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində NATO-Azərbaycan münasibətləri 1995-ci il iyunun əvvələrində ölkəmizə səfər etmiş general Ç.Makkenzenin başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycan rəhbərliyinin danışıqlarının əsas mövzusu oldu. İyunun 6-da NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələri komandanının müavini Ç.Makkenzi Xarici İşlər Naziri H.Həsənovla «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində Respublikanın NATO ilə konkret əməkdaşlığını əhatə edən Prezentasiya sənədinin müzakirəsini keçirdi. General NATO-nun respublikamızda hərtərəfli kömək göstərməyə hazır olduğunu bildirdi. Generalın fikrincə, bu əməkdaşlıq milli müdafiənin planlaşdırılmasında və onun büdcəsinin işlənib hazırlanmasında, silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin olunmasında, Respublika üçün maraq doğuran birgə fəaliyyət sahələrində Azərbaycana kömək göstərilməsini nəzərdə tuturdu. İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti general Ç.Makkenzini qəbul etdi. Görüşdə general Makkenzi Azərbaycanla NATO arasında münasibətlərin inkişafından məmnun qaldığını bildirmiş və qeyd etmişdir ki, alyans Azərbaycan silahlı qüvvələrinin qurulmasında və təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər [2, 27].

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev bildirdi ki, «biz, bir tərəfdən, NATO-nu dünyada ən nüfuzlu və təsirli təşkilat hesab edirik, digər tərəfdən, onu regionda sülhün dayağı və təşkilatçısı kimi görürük. Biz öz ordumuzun quruculuğunda NATO təcrübəsindən faydalanmalıyıq və bu faktor əməkdaşlığımızın ən mühüm məsələsi olmalıdır». Qeyd edildi ki, Azərbaycanın da NATO-da xüsusi nümayəndəliyinin açılması zəruridir. Görüşdə ilk dəfə olaraq, NATO-nun rəsmi nümayəndəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və regionda sülhün təmin olunması zəruriliyini qeyd etmişdir. 1995-ci il mayında Rusiyanın «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində fərdi tərəfdaşlıq proqramının imzalanması ilə əlaqədar Niderlandın Nordvik şəhərində keçirilən NATO toplantısında Azərbaycanın Xarici işlər naziri də iştirak edirdi. Öz çıxışında, o, ölkəmizin NATO ilə əlaqələrindən danışmış, Ermənistanın respublikamıza qarşı təcavüzü, problemin həllində Azərbaycanın mövqeyi haqqında geniş məlumat vermiş, işğal ərazilərində yerləşən silahlı qüvvələrin AASA Müqaviləsi üzrə yoxlamalardan kənarda qalmasını bir daha vurğulamışdı. Görüş ərəfəsində Ermənistan Gürcüstandan keçən qaz kəmərinin partladılmasında guya Azərbaycanın əli olduğunu bəhanə gətirərək, Minsk Qrupu çərçivəsində danışıqlar prosesindən çıxdığını elan etmişdi [4, 45]. Buna görə də nümayəndə heyətimizin digər ölkə nümayəndələri ilə keçirdiyi görüşlərin məqsədi Ermənistana danışıqlar prosesinə yenidən başlamaq üçün təzyiqlər edilməsinə nail olmaq idi.

Prezentasiya sənədinin hazırlanmasında Azərbaycan tərəfi ilə əməkdaşlıq məqsədilə 1995-ci ilin sentyabrında briqada generalı Angelo Arena (İtaliya) başda olmaqla, NATO-nun müxtəlif rəhbər strukturlarını təmsil edən nümayəndə heyəti respublikamıza səfər etdi. Azərbaycan Respublikasının Prezidenti ilə görüşdə NATO ilə Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsinə kömək etməyə hazır olduqlarını bildirən cənab Arena qeyd etdi ki, Azərbaycanın NATO-ya təqdim etmək üçün hazırladığı sənədlə tanış olmuşlar. Əməkdaşlıqda yeni mərhələyə başlamaq üçün həmin sənəd yaxşı əsasdır və prezident tərəfindən imzalanaraq, NATO-ya təqdim edilmək üçün hazırdır. Görüşdə həmçinin bildirildi ki, NATO kapitan Edvard Rocersi (ABŞ) Azərbaycan üzrə nümayəndə təyin etmişdir. Bu zabit NATO-nun Azərbaycan ilə əməkdaşlığa dair məsləhətləşmələr aparılmasında, habelə konkret məsələlərə dair birgə fəaliyyət üçün planlar hazırlanmasında iştirak etməlidir [5, 3].

NATO-nun Baş Katibi C.Robertsonun 2001-ci ilin yanvarında Azərbaycana səfəri münasibətlərin inkişafına təkan verdi. Burada müəyyənedici amil alyansın baş katibliyinin səfəri gedişində ikitərəfli münasibətlərə dair bir çox məsələlərə aydınlıq gətirilməsi oldu. Əslində münasibətlərin yeni mərhələyə keçirilməsi üçün möhkəm özül yaradıldı. Bu dövrdə NATO-nun baş katibi üç dəfə (1997-ci ilin fevral və 1998-ci ilin sentyabrı H.Solana və 2001-ci ilin yanvarında C.Robertson) və alyansın digər rəsmiləri Azərbaycana səfər etmiş, Brüsseldəki mənzil-qərargahında diplomatik missiyamız fəaliyyətə başlamış, Azərbaycanın sülhyaratma tağımı Kosovoda NATO rəhbərliyi altında sülhün keşiyində dayanmış, Azərbaycan ərazisində «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində bir sıra tədbirlər keçirilmişdir. Azərbaycan Avro-Atlantik Tərəfdaşlıq Şurasının iclaslarında rəyinin nəzərə alınması vacib olan dövlətlərdən birinə çevrilmişdir.

C.Robertsonun 2003-cü ilin mayında Bakıya səfəri NATO ilə münasibətlərin perspektivlərinə dair ən nikbin proqnozlar üçün zəmin yaratdı. NATO rəsmisinin fikrincə, Cənubi Qafqaz regionun dövlətləri içərisində strateji mövqeyi və iqtisadi potensialı baxımından Azərbaycanın Avro-Atlantik məkanına inteqrasiya üçün daha əlverişli şəraiti vardır [6, 13].

Azərbaycan diplomatiyası bu reallıqdan özünün hərbi-siyasi təhlükəsizliyi naminə maksimum faydalanmalıdır. Belə ki, Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasında kifayət qədər böyük imkanlara malik NATO ilə müvafiq sferada əməkdaşlıq Azərbaycan üçün müsbət qarşılanmalıdır. Bu, həm NATO daxilində kollektiv təhlükəsizlik, həm də regionda sülhün və təhlükəsizliyin təmin olunması baxımından mühüm faktor kimi nəzərə alına bilər. Məhz bütün bu məsələləri nəzərə alaraq, Azərbaycan Respublikası artıq əldə olunmuş nəticələr əsasında NATO ilə siyasi və hərbi əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, habelə yeni yaradılmış Avro-Atlantika Tərəfdaşlıq Şurasının və NATO-nun genişləndirilmiş «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində əməkdaşlıq üçün yaradılmış yeni mexanizmlər və imkanlardan fəal istifadə etmək niyyətindədir.

## ƏDƏBİYYAT


1. Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку: Азернешр, 1999, 256 с.
2. Заявление министров иностранных дел Совета Североатлантического Сотрудничества. Стамбул: 1994. www.nato.int

3. НАТО. Справочник. Брюссель, Бюро информации и печати НАТО, 1995, 368 с.
4. Примаков Е.М. Международные отношения накануне XXI века: проблемы, перспективы // Международная жизнь, №10, 1996, с. 3-13.
5. Роберсон Д.. Называем приоритеты в деятельности стран НАТО. www.nato.int
6. Cragg A. The Partnership for Peace planning and review process // NATO Review, Vol. 43, №6, 2009, p. 23-25.
7. Weger M.J. NATO: Partnership for Peace. The Evolution of NATO / The Brussels Summit and Beyond. London, Brassey's, 2003, 33 p.
8. Worner M. Shaping the Alliance for the future NATO Rewiew, Vol. 42, №1, 2007, p. 3-6.

## УЧАСТИЕ АЗЕРБАЙДЖАНА В ПРОГРАММЕ «ПАРТНЕРСТВА РАДИ МИРА»

**З.М.ГАСАНАЛИЕВ**

### РЕЗЮМЕ

В статье анализируются исторические и политические вопросы участия Азербайджанской Республики в Программе «Партнерства ради мира», принятой между Азербайджаном и НАТО. Отмечается, что Азербайджанская Республика превратилась в одно из государств, мнения которых являются важными в заседаниях Совета Авроатлантического Сотрудничества.

Автор исходит такому выводу, что Азербайджанская дипломатия должна максимально воспользоваться этой реальностью ради своей военно-политической безопасности. Так, сотрудничество в данной сфере с НАТО, который имеет большие возможности в обеспечении мира и безопасности в регионе Южного Кавказа, должно встречаться положительным образом.

## PARTICIPATION OF AZERBAIJAN IN THE PROGRAM OF «PARTNERSHIP FOR THE SAKE OF PEACE»

**Z.M.HASANALIEV**

### SUMMARY

The article analyzes historical and political issues of participation of the Azerbaijan Republic in the program of «Partnership for the sake of Peace», accepted between Azerbaijan and NATO. It is noticed that, the Azerbaijan Republic has become one of the states, whose opinions are important at the sessions of Council of Euroatlantic Cooperation.

The author proceeds to such a conclusion, that the Azerbaijan diplomacy should take as much advantage of this reality as possible for the sake of his military-political safety. So, cooperation in the given sphere with NATO, which has the big resources in the maintenance of the world and safety in the region of Southern Caucasus should be welcomed.